# İnam, etimad və rəhbər qətiyyəti

## Azərbaycan Prezidenti İlham Əliyevin parlaq siyasi fəaliyyəti ölkəmizin qüdrətini daha da artırır

**2018-ci il aprelin 18-də Milli Məclisdə Prezident İlham Əliyevin andiçmə mərasimində Azərbaycanın dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları və Prezidentin ailə üzvləri iştirak ediblər. Qanunvericiliyə görə Prezident and içdikdən sonra səlahiyyətlərinin icrasına başlayıb.**

"Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar". Bu fikirlər Prezident İlham Əliyevin 2018-ci il aprelin 18-də keçirilən andiçmə mərasimindəki çıxışında yer alır. Növbəti dövr üçün əsas fəaliyyət istiqamətlərini açıqlayan dövlət başçısı tərəfindən seçkilərdən sonra ölkəmizdə islahatların yeni mərhələsinə keçidin anonsu verilmiş və 2019-cu ilin əvvəlindən başlayaraq, sosial-iqtisadi sferada köklü və sistemli dəyişikliklərə başlanılmışdır.

Möhtərəm Prezidentimizin qazandığı bütün uğurların kökündə Heydər Əliyev siyasətinə sadiqlik və onun dünyanın yeni geosiyasi reallıqları kontekstində kreativ və innovativ yanaşmalarla davam etdirilməsi kursu dayanır. Azərbaycan məhz Prezident İlham Əliyevin məqsədyönlü, sistemli, düşünülmüş və müdrik siyasəti sayəsində sabitlik və təhlükəsizlik adasına çevrilmişdir. Ölkəmizdə siyasi sabitlik və innovativ inkişafın, davamlı iqtisadi yüksəlişin, nizami və güclü ordu quruculuğu prosesinin, demokratik islahatların, müasirləşmənin, uğurlu xarici siyasətin və pozulmuş ərazi bütövlüyümüzün bərpası naminə fədakar mübarizənin təşəbbüskarı və təminatçısı Prezident İlham Əliyevdir. Xalq öz Prezidentinə inanır və onu dəstəkləyir.

### 8-də Prezident mərasimi keçirilib

Prezident seçkiləri ölkənin hər sahə üzrə inkişaf istiqamətinin müəyyənləşməsi baxımından Azərbaycanın dövlət müstəqilliyi tarixində həlledici hadisədir. 2018-ci il aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkilərində 86,02 faiz səs çoxluğu ilə qalib gələn cənab İlham Əliyev növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib. "Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq".

Xalq-hakimiyyət birliyi istənilən dövlətdə siyasi sabitliyi və təhlükəsizlik mühitini şərtləndirən həlledici amildir. Bu birlik təsadüfən, öz-özünə formalaşmır. Bunun üçün əsas şərt xalqı arxasınca aparmağı bacaran güclü və xarizmalı lider amilinin olmasıdır. Elə bir lider ki, müstəqil siyasət aparmaq iqtidarında olsun. Elə bir lider ki, xalqın və dövlətin milli maraqlarını bütün mənafelərin fövqünə yüksəltsin, sözü və əməli üst-üstə düşsün. Belə liderləri tarixə bəxş edən xalqlar böyük, əzəmətli və bəxtəvərdir. Öz əməlləri ilə xalqının sonsuz sevgisini qazanmış liderlər isə xoşbəxtdir. Məsələyə bu kontekstdə yanaşdıqda, böyük qürur və fəxarət hissi ilə deyə bilərik ki, möhtərəm Prezidentimiz İlham Əliyev xoşbəxt dövlət rəhbəridir.

Azərbaycan xalqı 2003-cü ildən sonra ardıcıl olaraq Heydər Əliyev siyasi kursuna öz dəstəyini verdi və yalnız İlham Əliyevi ölkə rəhbərliyində görmək istəyini birmənalı şəkildə ifadə etdi. Seçkilərin nəticələri xalqımızın Azərbaycanı uğurla idarə edən, ölkəmizə saysız-hesabsız nailiyyətlər qazandıran Prezident İlham Əliyevə böyük inamının ifadəsidir. Prezident İlham Əliyev milli maraqlarımızı qətiyyətlə qoruduğu, daim ölkə vətəndaşlarının rifahının, həyat şəraitinin yaxşılaşması naminə çalışdığı üçün xalq da ona inanır və həmişə böyük dəstək göstərir. 2018-ci ildə Prezident İlham Əliyevə dördüncü dəfə xalq tərəfindən göstərilən etimad həm də ölkəmizdə hər kəsin dövlətin apardığı siyasi kursu dəstəklədiyinin bariz göstəricisi idi. Azərbaycan dövləti tarixində yeni mərhələnin başlanğıcı qoyuldu. Andiçmə mərasimindən sonra tez bir zamanda ölkədə bütün sahələrdə başlanılan islahatlar, dövlət institutlarının müasir çağırışlara cavab verməsi üçün aparılan dəyişikliklər, korrupsiyaya qarşı mübarizə, regionlardakı idarəetməyə diqqətin artırılması xüsusilə qeyd edilməlidir.

Prezident İlham Əliyevin müəyyən etdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. 2020-ci ilin əvvəlində bütün pensiyalar ölkə üzrə 16,6 faiz indeksasiya olunaraq artırılmışdır. Orta pensiyanın məbləği 13 faiz artaraq 300 manata, yaşa görə pensiyanın orta məbləği də 13 faiz artaraq 330 manata çatmışdır. Prezident təqaüdləri 25 faiz, sosial müavinətlər isə 15 faiz artmışdır. Ümumən bu ödənişlər 2 milyondan çox vətəndaşı əhatə etmişdir. Həm minimum, həm də orta pensiyanın alıcılıq qabiliyyəti indeksinə görə Azərbaycan MDB məkanında öz liderliyini qorumuşdur. Dövlət başçısının müəyyən etdiyi sosialyönümlü siyasi kursa uyğun olaraq 2020-ci ildə 77 min ailəyə, yəni 322 min nəfərə ünvanlı sosial yardım göstərilmişdir. Orta aylıq ödənişin məbləği 240 manat təşkil etmişdir.

Xüsusi həssas kateqoriyadan olan insanlar - şəhid ailələri, müharibə əlilləri və müharibə veteranları Prezident İlham Əliyevin böyük diqqət və qayğısı ilə əhatə olunmuşlar. Belə ki, cənab Prezidentin 2020-ci il 31 dekabr tarixli Sərəncamı ilə şəhid ailələrinin təqaüdü 500 manata çatdırılmışdır. Müharibə əlillərinə verilən təqaüdlərin məbləği də artırılmışdır. Milli qəhrəmanların təqaüdü 1800 manata, Vətən müharibəsi qəhrəmanlarının təqaüdü isə 2000 manata yüksəldilmişdir. Beləliklə, təqaüdlərin artırılması 100 minədək insanı əhatə etmişdir. 2020-ci ildə 1500 şəhid ailəsi və müharibə əlili mənzil və evlərlə təmin olunmuşdur.

Cənab İlham Əliyevin prezidentliyi dövründə ölkəmiz böyük inkişaf yolu keçmiş, Azərbaycan dövlətçiliyinin əsasları ciddi şəkildə möhkəmlənmiş, qüdrəti və iqtisadiyyatı daha da artmış, beynəlxalq müstəvidə mövqeyi xeyli güclənmişdir. İnsan amili, xalqın rifahı və milli maraqlar dövlət siyasətinin strateji prioritetləri olmuşdur. Milli ləyaqət və qürur uğurlarımızın əsas şərtləri kimi özünü təsdiqlədi. Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət edir. Məhz Prezident İlham Əliyevin xidmətləri sayəsində Azərbaycan dünyada tolerantlıq, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanınmışdır. Mürəkkəb dünyada baş verən proseslər fonunda Azərbaycanın sabit və davamlı inkişafı Prezident İlham Əliyevin dövlət quruculuğu və inkişafı istiqamətində fəaliyyətinin bariz nümunəsidir.

Prezident seçkilərindən sonra genişmiqyaslı və hərtərəfli islahatlar kursu sayəsində Azərbaycanın siması büsbütün dəyişir. Müasir, sivil, demokratik inkişaf yolunu seçmiş Azərbaycanın səsi dünya meridianlarında daha ucadan eşidilir. Heç bir fors-major vəziyyət Prezident İlham Əliyevin proseslərə prinsipial, qətiyyətli yanaşma tərzinə, preventiv, profilaktik, ardıcıl və sistemli qərar qəbuletmə məharətinə, sarsılmaz iradəsinə təsir edə bilməz. Bu həqiqət bütün dünya dövlətlərini əsarətinə almış COVID-19 pandemiyası ilə qlobal mübarizə şəraitində özünü büruzə verdi. Prezident İlham Əliyevin COVID-19 pandemiyasına qarşı 3 istiqamətdə (əhalinin həyatı və sağlamlığının qorunması; əhalinin sosial müdafiəsinin təmin olunması; iqtisadi fəallığın inkişaf etdirilməsi) müəyyən etdiyi mübarizə strategiyası sayəsində Azərbaycan bu ümumi bəlanın doğurduğu itkiləri minimuma endirdi. Bu həqiqət Ümumdünya Səhiyyə Təşkilatının rəhbərliyi səviyyəsində bir neçə dəfə etiraf olunmuş və Azərbaycan bu baxımdan nümunəvi dövlətlər sırasında qeyd edilmişdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin aprel ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, may ayında isə Qoşulmama Hərəkatına üzv dövlətlərin Təmas qrupunun videoformatda keçirilən Zirvə görüşləri məhz milli, regional və qlobal səviyyələrdə pandemiyaya qarşı səylərin birləşdirilməsini, bu sahədə təcrübə mübadiləsi məsələlərini özündə ehtiva etmişdir. Sonuncu tədbirdə dövlətimizin rəhbəri unikal təşəbbüslə - BMT Baş Məclisinin xüsusi sessiyasının çağırılması təklifi ilə çıxış etdi. Bütün dünyanı ağuşuna alan COVID-19 pandemiyasının dəhşətli nəticələrini zərərsizləşdirərək ölkə vətəndaşlarının can güvənliyini qoruya bilmiş Prezidentin nə qədər böyük sıxıntılara sinə gərdiyinin şahidi olduq.

Qlobal böhranın doğurduğu iqtisadi və psixoloji çətinliklərə baxmayaraq, ölkənin iqtisadi müvazinətini əzmlə qoruyub saxlaması, hökumətin sosial öhdəliklərinin uğurla reallaşdırılması, təxirəsalınmaz, zəruri layihələrin icrasında çətinliklərin yaranmaması inkişafın Azərbaycan modelinin uğurlarını bir daha təsdiqləyir. Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən Dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu.

Ölkədə qeyri-neft sektorunun inkişafı neft siyasətinin məntiqi davamı oldu. Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələrinin reallaşması nəticəsində minlərlə insan iş yeri ilə təmin edildi. Təkcə son üç il ərzində səhiyyə ocaqlarının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafını göstərdi. Ölkədə məktəblərin tikintisi və təmiri davam etdirildi, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi.

Respublikamızın tranzit imkanlarının reallaşması üçün iri layihələr uğurla icra olundu. Bu baxımdan, Beynəlxalq Dəniz Limanının və Gəmiqayırma Zavodunun tikintisi, TRACECA, Şimal-Cənub, Şərq-Qərb dəhlizləri çərçivəsində görülən işlər, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi xüsusi vurğulanmalıdır. 2021-ci ildən başlayaraq İtaliyanın Azərbaycanın maye qazından istifadəyə başlaması artıq "qoca qitə"nin bəzi dövlətlərinin gələcəkdə daha çox ölkəmizin enerji sahəsində tərəfdaşı olmasına gətirib çıxaracaq. İftixarla qeyd edə bilərik ki, Prezident İlham Əliyevin başçılığı ilə Azərbaycan Bakı-Tbilisi-Qars, Şimal-Cənub, TAP, TANAP kimi beynəlxalq əhəmiyyətli layihələri reallaşdırdı.

Bu gün Azərbaycanı regionda bir nömrəli enerji dövlətinə çevirən, enerji sahəsində Avropanın etibarlı tərəfdaşı statusu qazanmağımıza səbəb olan hadisələrin təməlində məhz Prezident İlham Əliyevin böyük əməyi, uzaqgörən siyasəti dayanır. Azərbaycanın iqtisadi sahədə və beynəlxalq miqyasda qazandığı uğurları, Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun bağlanmasını, Cənub Qaz Dəhlizinin mühüm hissələri olan həm TAP, həm TANAP qaz kəmərlərinin həcminin iki dəfə genişləndirilməsi məsələlərinin müzakirə olunduğunu, ölkəmizin liderliyi ilə planlaşdırılan digər yüksək büdcəli və geniş şaxəli enerji layihələrini nəzərə alsaq, Prezident İlham Əliyevin həmin plan və proqramları necə məharətlə həyata keçirdiyini görərik.

Birmənalı olaraq vurğulanmalıdır ki, Prezident İlham Əliyevin siyasətində əsas prioritetlər Vətənin müdafiəsi və xalqın rifahıdır. Bu baxımdan, möhtərəm dövlət başçımızın həyata keçirdiyi müstəqil xarici siyasətin əhəmiyyətli nəticələrindən biri kimi məhz Vətən müharibəsində əldə olunmuş möhtəşəm tarixi Qələbəmizi göstərmək lazımdır. Qarabağın azad olunmasının ilk anonsu məhz xalqın, cəmiyyətin 2018-ci ildə Prezidentə yenidən etimadı, inamı oldu. Prezident İlham Əliyev demişdir: "Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq". Dövlət başçısı hər çıxışında, görüşlərində, müraciətlərində, təbriklərində bəyan edirdi ki, danışıqlar nəticəsiz qalacağı təqdirdə, güclü Azərbaycan Ordusu öz sözünü deyəcək. Bəli, bu gün işğaldan azad olunmuş torpaqlarımızda üçrəngli Azərbaycan bayrağı dalğalanır. 44 günlük savaşda vəhşi düşmən qarşısında qələbəmizi böyük Sərkərdə iradəsi və Lider qətiyyəti təmin etdi. Xalqın doğru seçimi onun tarixi qələbəsinin təminatı oldu.

İkinci Qarabağ müharibəsi dövründə xalqımız cənab İlham Əliyevin ətrafında "Dəmir yumruq" kimi birləşdi, 30 il işğal altında olan Qarabağımız azadlığına qovuşdu. Vaxtilə erməni qəsbkarları tərəfindən işğal olunmuş Şuşa şəhərində Azərbaycan bayrağının dalğalanması bizə böyük qürur hissi bəxş edir. Bu şanlı qələbə xalqımızın və dövlətimizin gücünü erməni qəsbkarlarına nümayiş etdirdi. Vətən müharibəsində əldə olunan tarixi Zəfərin məhz 2023-cü ildə tamamlanması rəmzi məna daşıyırdı. Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən üç il sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Xankəndidə separatçı rejimin ləğv edilməsi, Azərbaycanın müstəqilliyini, hər bir qarış torpağı üzərində suveren hüququnun bərpa edilməsi kimi tarixi missiya tam yerinə yetirildi. Noyabr ayının 8-də Qarabağın mərkəzində, Xankəndi şəhərində Vətən müharibəsində qələbəmizin 3-cü ilönümü münasibətilə hərbi paradın keçirilməsi hər birimizdə qürur doğurdu. İllərdən bəri gözlədiyimiz, həsrətində olduğumuz tarixi günün sevincini yaşadıq. Birmənalı olaraq haqq savaşımızda əldə etdiyimiz qələbə Azərbaycan tarixində, xalqın yaddaşında əbədi yaşayacaq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bu qələbə sayəsində qalib xalq kimi özünü dünyada tanıtdı.

Bu gün Prezident İlham Əliyev dünya siyasətində söz sahibi olan bir liderdir və işğaldan azad olunmuş ərazilərimizin bərpası üçün Böyük Qayıdış missiyasına uğurla rəhbərlik edir. Millətini zəfərə aparan liderin əsas dayağı, qələbə ruhu böyük Azərbaycan xalqının birliyidir.

**Mustafa KAMAL,**
**"Respublika".**